**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

*Əlyazması hüququnda*

**ƏLIRZAYEV ANAR VƏZIRXAN OĞLU**

# AZƏRBAYCANIN EMAL SƏNAYESİNDƏ SAHİBKARLIĞIN DAYANIQLI İNKİŞAFININ FORMALAŞMASININ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5304.01 – İqtisadi fəaliyyət növləri**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
Əliyev Tərbiz Nəsib oğlu

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
Ramiz Kamil oğlu İsgəndərov

iqtisad üzrə fəlsəfə doktoru,dosent
Nəsimi Bəşir oğlu Kamalov

**Aparıcı təşkilat:** Bakı Dövlət Universiteti

Dissertasiya işinin müdafiəsi "19" May 2016-ci il tarixində saat 11:00 -da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində fəaliyyət göstərən D.02.141 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1010, Bakı şəhəri, Azadlıq prospekti 34
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Dissertasiya işi ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Əsaslı Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "      "Aprel 2016-cı ildə göndərilmişdir.

**D.02.141 Dissertasiya Şurasının**
**Elmi katibi, t.ü.e.d., professor** **Əliyev Ə.M.**

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** Suverenlik illərində bazar iqtisadiyyatı modelinin geniş tətbiqi istiqamətində atılan inamlı addımlar Azərbaycanın sosial-iqtisadi həyatında uğurlu dəyişikliklərlə müşahidə olunur.

Azərbaycanda sahibkarlığın inkişafına diqqətin və dövlət köməyinin daha da artması nəticəsində bazar iqtisadiyyatının əsasını təşkil edən xüsusi mülkiyyət inkişaf etmiş, yeni müəssisə və təşkilatlar yaranmışdır. Sahibkarlığın inkişafına mane olan süni əngəllərin aradan qaldırılması, vergi siyasətinin xeyli dərəcədə sadələşdirilməsi istiqamətində mühüm addımlar atmışdır.

Sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə qeydiyyat sistemi Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən müəssisələrin qeydiyyatı sahəsində ən uğurlu islahat hesab edilmişdir.

Azərbaycanın sürətli inkişafı respublika iqtisadiyyatına qoyulan xarici və daxili investisiyaların hesabına əldə olunmuşdur. Azərbaycanda prioritet elan edilmiş qeyri-neft sektorunun inkişafı və məhsul istehsalında davamlı artım təmin edilmişdir.

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası nəticəsində kiçik, orta və fərdi sahibkarlıq sürətlə inkişaf etməyə başlamış, onların sayı əsaslı şəkildə artmış, 1,35 mlyn.-dan çox yeni iş yeri yaradılmışdır. Sahibkarlığın inkişafı iqtisadi fəal əhalinin məşğulluq səviyyəsini əsaslı şəkildə artırmış, işsizliyin və yoxsulluğun səviyyəsi minimuma endirilmişdir.Ölkəmizdə aparılan sənayeləşmə siyasəti nəticəsində 2004-2014 illərdə sənaye məhsulunun həcmi 5,4 dəfə artmış, sənayenin qeyri-neft sektorunda inkişafa nail olunmuşdur. Ölkə sənayesinin çoxçeşidli məhsul istehsalı və qeyri-neft sektorunun şəbəkələrinə görə ağırlıq yükü emal sənayesinin üzərinə düşür və 2014-cü ilin sonunda sənayedə fəaliyyət göstərən bütün müəssisələrinin 69,5%-i, o cümlədən kiçik müəssisələrin 76%-i, orta və iri müəssisələrin 55%-i, sənaye məhsulunun 25,1%-i, qeyri-dövlət sektorunda 57%-i, ölkə iqtisadiyyatında çalışanların 6,3%-i, qadınların – 24%-i, əsas istehsal fondlarının 11,9%-i, sənayedə innovasiya məhsulunun tam əksəriyyəti, texnoloji innovasiyalara çəkilən xərclərin – 80,7%-i məhz həmin sənayesinin payına düşür. AR DSK-nin məlumatlarına görə 2005-2014-cü illərdə orada məhsulun (işin, xidmətin) həcmi 2,6 dəfə, o

cümlədən dəri məmulatlarının və ayaqqabıların istehsalı sferasında 4,2 dəfə artmış, fərdi sahibkarların sayı – 2,1 dəfə çoxalmışdır. Əldə edilən nailiyyətləri yüksək qiymətləndirərək onu da qeyd etmək lazım gəlir ki, təhlilin əhatə etdiyi dövrdə ölkədə fəaliyyət göstərən emal sənayesi müəssisələrinin sayı ildən-ilə azalmaqdadır. Təkcə 2014-cü ildə 527 müəssisə müxtəlif səbəblərdən ləğv edilmişdir ki, onların da 4,6% -i emal sənayesinin payına düşür. Təkcə 2005-2014-cü illərdə emal sənayesində fəaliyyət göstərən işçilərin sayı 3,5% artmış, işçi axıcılığı buraxıla bilən həddən 3 dəfə çox olmuşdur. Dəri məmulatları və ayaqqabıların istehsalı sferasında qeyd edilən illər ərzində işçi axıcılığının səviyyəsi 20,9%-lə 80,1% arasında dəyişmiş və 2014-cü ildə 10,5% təşkil etmişdir.

Emal sənayesində sahibkarlıq subyektlərinin investisiya təminatına qiymət verərkən aydın olur ki, bu sahədə kiçik, iri və orta müəssisələrin vəsaitlərinin yüksələn xətlə artdığı, xarici investisiyaların isə ayrı-ayrı istehsal fəaliyyət sahələrinə yönəldilməsi hallarının azaldığı müşahidə edilir. Dəri məmulatları və ayaqqabı istehsalı sferasına yönəldilən investisiyaların azalması orada ƏİF-in strukturunun təkmilləşdirilməsinə, innovasiya aktivliyinin yüksəldilməsinə mənfi təsir göstərir. Emal sənayesi və onun alt-sahələrinin investisiya təminatı, əsasən dövlət vəsaiti üstünlük təşkil etməklə daxili investisiyalar hesabına ödənilir. Bu sferalarda əsas istehsal fondlarının və onların aktiv hissəsinin aşınma dərəcəsi hələ də yüksəkdir. Həmin sahədə mövcud idarəetmə strukturuna qeyri-təkmil olması, menecment metodlarından zəif istifadə edilməsi, ixrac potensialının aşağı olması da davamlı inkişafa öz mənfi təsirini göstərir. Sadalanan həmin nöqsanların mövcudluğu adı çəkilən sənaye sahəsində və onun alt sahələrində sahibkarlığın davamlı inkişafı istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənilməsini və seçilən mövzunun aktuallığını şərtləşdirmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Müstəqillik illərində Azərbaycanın tanınmış iqtisadçı alimlərdən: Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, N.M.İmanov, T.Ə.Quliyev, T.H.Hüseynov, İ.H.Alıyev, T.N.Əliyev, M.C.Atakişiyev, M.M.Fərzəliyev, R.M.Cəbiyev, R.T.Həsənov, A.B.Abbasov, Ş.S.Qafarov, Z.F.Məmmədov, M.A.Əhmədov, Ə.Q.Əlirzayev, V.T.Novruzov, A.Ş.Şəkərəliyev, R.P.Sultanova, Q.S.Süleymanov, Q.Ə.Səfərov, M.A.Məmmədov, A.H.Tağıyev,

B.S.Xıdırov, G.Z.Yüzbaşova, E.M.Hacızadə və başqaları, ölkədə həyata keçirilən sistemli iqtisadi islahatların konsepsiyasına, onun nəzəri əsaslarına, əldə edilmiş uğurların yekunlarına, sahibkarlığın səmərəli təşkili və idarə edilməsinə, davamlı və dayanıqlı inkişaf problemlərinə, sahibkarlığın dövlət tənzimlənməsinə, sosial-iqtisadi inkişaf problemlərinə, xarici-iqtisadi fəaliyyətin təşkilinə dair çoxsaylı məqalələr, monoqrafiyalar yazmış və elmi-tədqiqat işləri yerinə yetirmişlər.

Tədqiqat işi aparılarkən xarici ölkə alimlərindən M.İ.Buxalkov, V.İ.Vdovin, V.A.Dines, P.Druker, A.Dayle, A.B.İlyasov, V.N.Kovalçuk, N.B.Lyaşnikov, V.N.Naumov, V.M.Prudnikov, V.A.Sotnikov, Q.B.Çernova, S.V.Çurpov və başqalarının sahibkarlığın təşkili, idarə edilməsi, dayanıqlı inkişafına və menecmentə həsr edilmiş əsərləri öyrənilib ümumiləşdirilmiş, onların tövsiyələrindən istifadə olunmuşdur.

Tədqiqat işi yerinə yetirilərkən kiçik və orta biznesin təşkili, müştərək fəaliyyətin idarə edilməsi, iş qüvvəsindən, kapitaldan istifadə, investisiya və innovasiya problemlərinə həsr edilmiş və AMEA-nın İqtisadiyyat İnstitutunda, ADİU-da, ADNSU-da müdafiəsi keçirilən dissertasiya işlərinin ayrı-ayrı müddəalarından da istifadə edilmişdir. Yerinə yetirilən işlərin və aparılan tədqiqatların əhəmiyyətini yüksək qiymətləndirməklə yanaşı qeyd olunmalıdır ki, ölkəmizin emal sənayesinin və onun üzvi tərkib hissəsi olan dəri məmulatlarının və ayaqqabıların istehsalı sferasında sahibkarlıq fəaliyyətinin dayanıqlı inkişafı, müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın genişləndirilməsi, infrastrukturun yeniləşməsi, innovasiya aktivliyinin artırılması, onun stimullaşdırılması, sahibkarlığın inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi, sahibkarlıq menecmentinin təşkilinin dayanıqlı inkişafa təsiri, subyektlərinin optimal risk-menecment strategiyasının formalaşdırılması məsələləri bu vaxtadək sistemli yanaşma əsasında və kompleks şəkildə tədqiq edilməmişdir.

Bütün bunlar tədqiq edilən problemin mühüm nəzəri və metodoloji baxımdan tədqiq edilməsini, seçilmiş sahə üçün aktual olduğunu təsdiq edir və ona uyğun da tədqiqatın məqsədi və vəzifələri müəyyən edilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın emal sənayesi müəssisələrində müasir sahibkarlığın

dayanıqlı inkişafının formalaşması üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- klassiklərin, respublika və xarici ölkə alimlərinin sahibkarlığın təşkili və səmərəli idarə edilməsinə dair əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında emal sənayesində sahibkarlığın dayanıqlı inkişafının nəzəri-metodoloji aspektlərini tədqiq etmək;
- çoxillik statistik, ilkin uçot sənədlərinin və anket sorğusunun məlumatları əsasında emal sənayesində sahibkarlığın təşkilinin mövcud vəziyyətini sistemli yanaşma əsasında təhlil edib qiymətləndirmək və müvafiq ehtiyat imkanlarını aşkara çıxarmaq;
- emal sənayesində kiçik, müştərək və fərdi sahibkarlıq fəaliyyətinin təşkilini qiymətləndirmək;
- dəri məmulatları və ayaqqabıların istehsalı sferasında sahibkarlığın təşkilinin mövcud vəziyyətini kompleks şəkildə araşdırmaq;
- emal sənayesində və onun alt-sahələrində sahibkarlığın inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin genişləndirilməsi və optimal risk-menecmenti strategiyasının formalaşdırılması üzrə metodiki və əməli xarakterli təklif və tövsiyələri işləyib hazırlamaq.

**Tədqiqat obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanın emal sənayesi və onun üzvi tərkib hissəsi olan dəri məmulatlarının və ayaqqabıların istehsalı sferasında fəaliyyət göstərən: BOT MMC, «Gilan Holdinq» kompaniyasının dəri emalı zavodu; 1 və 3 №-li Bakı ayaqqabı fabrikləridir.

Tədqiqatın predmetini isə – emal sənayesində sahibkarlığın dayanıqlı inkişafının formalaşması prosesində meydana çıxan idarəetmə münasibətləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** sahibkarlıq fəaliyyətinin təşkili və idarə edilməsi üzrə Azərbaycan Respublikasının normativ-hüquqi aktları, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları, dövlət, sahə və regional proqramları, xarici ölkə və respublika alimlərinin elmi fikirləri; sahibkarlığın inkişafı ilə bağlı aparıcı təşkilatların elmi-metodiki materialları təşkil edir.

Tədqiqat prosesində kompleks yanaşma, sistemli təhlil, statistik, ümumiləşdirmə, qruplaşdırma metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin, Sahibkarlığa Kömək Milli Fondunun, sahibkarlıq sahəsində beynəlxalq təşkilatların statistik məlumatları, hesabatları, respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfransların materialları, kütləvi informasiya vasitələrində çap edilən müsahibələri, İnternet şəbəkələri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Emal sənayesində sahibkarlığın dayanıqlı inkişafının nəzəri-metodoloji əsasları formalaşmışdır;
- Sahibkar firmanın dayanıqlı inkişafını qiymətləndirmək üçün sistem göstəricilər və meyarların təsnifatı verilmiş, onların icrasına təminat yaradan şərtlər formalaşdırılmışdır;
- Sahibkar firmalarda marketinq funksiyasından istifadənin maliyyə effektini hesablamaq üçün riyazi model təklif edilmişdir;
- Sahənin innovasiya proqramının və risk-menecment üzrə biznes-planın təkmil strukturu işlənilmişdir;
- Sahibkarlıq subyektlərində riskin neytrallaşdırılması mexanizmi təklif edilmişdir;
- Ödəniş qabiliyyətinin itirilməsi üzrə riskin qiymətləndirilməsi metodikasının quruluşu və məzmunu cədvəl şəklində təklif olunmuşdur;
- İstehsal sferasında işgüzar münasibətlərin formalaşmasının əsas prinsipləri və alıcılarla dialoqun qurulması prosesinin fazalarını özündə əks etdirən sxem verilmişdir.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti** ondan ibarətdir ki, irəli sürülən konkret təklif və tövsiyələr Azərbaycanın emal sənayesi və onun alt-sahələrində sahibkarlığın səmərəli təşkili, idarə edilməsi, dayanıqlı inkişafı, onun təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi, investisiya təminatının yaxşılaşdırılması; innovasiya fəaliyyətinin genişləndirilməsi, sahə və regional innovasiya proqramlarının və biznes-planların tərtibatı; layihələrin qiymətləndirilməsi; subyektlərin optimal risk-menecment strategiyasının formalaşması və həyata keçirilməsində, eləcə də sahibkarlıq və biznes fənlərinin tədrisi prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, işlənib hazırlanan təklif və tövsiyələr «XXI

əsrdə elmin, iqtisadiyyatın və təhsilin aktual problemləri mövzusunda keçirilən II Beynəlxalq Elmi-praktiki konfransda (Samara-2012); «Regional innovasiya fəaliyyəti: reallıqlar və perspektiv inkişaf» Respublika Elmi-Praktiki Konfransında (Gəncə-2012); «Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri» mövzusunda keçirilən Respublika Elmi konfransında (Bakı-2013) məruzə edilmiş və onların məzmunu çap edilmiş, müvafiq konfrans materiallarında öz əksini tapmışdır. Bununla yanaşı tədqiqatın nəticələri Sumqayıt Dövlət Universitetinin iqtisadiyyat və menecment fakültəsində daim fəaliyyət göstərən elmi seminarda məruzə və müzakirə edilmişdir.

İşin əsas məzmunu 8 elmi əsərdə öz əksini tapmışdır.

Dissertasiya işini əsas nəticələri "Seyfulla&Kövsər MMC"-yə təqdim edilmiş və istifadə haqqında arayış alınmışdır

**Dissertasiya işinin quruluşu və həcmi.** İş giriş, üç fəsil, 9 yarımfəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Onun ümumi həcmi 194 səhifədir İşdə 32 cədvəl, 40 şəkil və 129 addan ibarət istifadə olunmuş ədəbiyyat siyahısı verilmişdir.

## Tədqiqat işinin əsas məzmunu

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və tədqiqat obyektinin seçilməsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi göstərilir.

Dissertasiya işinin **«Emal sənayesində sahibkarlığın dayanıqlı inkişafının formalaşmasının nəzəri-metodoloji aspekttləri»** adlı birinci fəslində respublikamızın və xarici ölkə alimlərinin seçilmiş mövzuya dair əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında sahibkarlığın dayanıqlı inkişafının mahiyyəti və məzmunu, onun formalaşmasının metodoloji aspektləri, sahibkarlıq menecmentinin təşkilinin dayanıqlı inkişafa təsirinin nəzəri əsasları tədqiq olunmuşdur.

İşdə «sahibkarlıq», «sahibkarlıq fəaliyyəti», «sahibkar», «dayanıqlı inkişaf», «davamlı inkişaf» məfhumlarının fərqli cəhətdən göstərilmiş, müəllifin onlara tədqiq etdiyi istehsal sahəsinə uyğun münasibəti formalaşdırılmışdır. Hesab edirik ki, dayanıqlı inkişaf – müasir dövrün tələblərini ödəyən, lakin gələcək nəslin tələbatını ödəməyi təhlükə

altına qoymayan və bu zaman digər ölkələrin suverenliyinə təhlükə yaratmayan inkişafdır. İşdə dayanıqlı inkişafın başlıca şərtlərini və onun konsepsiyası üzrə baxışların məzmunu sxem şəklində təsvir edilmişdir. Fikrimizcə, ölkəmizdə sahibkarlığın təşkili, xərclərin idarə edilməsi və innovativ inkişafı kontekstində onun davamlı inkişafı təmin olunmalı və o, dayanıqlı inkişafın üzvi tərkib hissəsi kimi çıxış etməlidir. Lakin tədqiqatlarımızla müəyyən edilmişdir ki, emal sənayesinin ayrı-ayrı alt sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin davamlı fəaliyyətinə mənfi təsir göstərən amillər içərisində – vergi dərəcələrinin və kredit faizlərinin yüksək olması, dövriyyə vəsaitinin çatışmazlığı, yeni texnologiyanın tətbiqinə şəraitin olmaması, fəaliyyətə lüzumsuz müdaxilələrin davam etməsi, xammal və yarımfabrikatların çatışmazlığı və s. üstünlük təşkil edir, orada sahibkarlıq subyektlərinin kadr təminatı prosesində istehsalın son nəticəsi ilə əməyin ödənişi arasında uyğunsuzluq davam edir, işçi axıcılığı beynəlxalq səviyyədə qiymətləndirilən buraxıla bilən həddən xeyli yüksəkdir, qadın sahibkarların sayı və xüsusi çəkisi aşağıdır. Bütün bu ehtiyat imkanlarının və maneələrin aradan qaldırılması üçün dövlət səviyyəsində kompleks tədbirlərin həyata keçirilməsi istiqamətində səylər gücləndirilməlidir.

Bununla yanaşı milli mənafeləri və regional xüsusiyyətləri nəzərə alaraq sahibkarlığın davamlı inkişafı üçün kiçik və orta biznesin inkişafının uzunmüddətli dövrü əhatə edən məqsədli konsepsiyanın işlənilməsi vacibdir. Həmin konsepsiyanın məqsədinə uyğun müvafiq mexanizminin işlənilməsi təmin edilməli və onun çərçivəsində aparılacaq struktur dəyişiklikləri ilk növbədə – xammalın emalına yönəldilməli; innovasiyaların tətbiqinə çevik reaksiya verilməli, dəyişən tələbatın məzmunu nəzərə alınmalı və dəyişiklik son tələbatçı mövqeyinə istiqamətlənməlidir. Bu sahədə uğur qazanmaq üçün şaquli inteqrasiya olunan innovasiya amillərini nəzərə alan, sahə istehsal strukturlarının yaradılması, istehsal proseslərinin təmərküzləşməsi, onların texnoloji strukturunun inkişaf etdirilməsi yüksək iqtisadi nəticələr əldə etməyə imkan verə bilər. Bunun üçün ölkəmizin iri şəhər və rayonlarında texno və aqroparkların (ixtisaslaşdırılmış və qarışıq), sənaye və xidmət məhəllələrinin, sənaye şəhərciyinin yaradılması,

sahibkarlığın səmərəli idarə olunması və dayanıqlı inkişafına təminat yaratmış olacaqdır. Davamlı inkişafı təmin etmək üçün ilk növbədə sahibkarlıq subyektlərinin fəaliyyətində «dar yerləri» aşkar etmək, sonra isə onların aradan qaldırılması üçün tələb olunan vəsait və resursları müəyyən edərək strateji planlaşdırmaya üstünlük verilməlidir. Başqa sözlə, SWOT-təhlil aparaaraq zəif və güclü tərəflər müəyyən edilməli, bütün mümkün olan ehtiyat imkanları aşkar edilərək, onlardan səmərəli istifadə tədbirləri işlənilməlidir. İşdə sahibkarlığın iqtisadi dayanıqlığının kateqoriyaları, davamlı inkişafa zəmanət verən başlıca istiqamətlər, onun idarəetmə alətləri və onların məqsədlərini özündə əks etdirən sxemlər verilmiş, dayanıqlı iqtisadi inkişafın təmin edilməsinin alqoritmi təklif edilmişdir. Bu fəsildə sahibkar firmaların iqtisadi dayanıqlığının qiymətləndirilməsi üzrə sistem göstəricilər və meyarlar tədqiq edilən sahənin xüsusiyyətlərinə uyğun vahid cədvəldə əks etdirilmiş, qiymətləndirmə metodlarının həyata keçirilməsi mərhələləri, onların məzmunu, istehsal sahibkarlığı ilə məşğul olan müəssisələrin idarə edilməsi modeli sxem formasında əks etdirilmişdir.

İşdə sahibkarlıq menecmentinin təşkilinin dayanıqlı inkişafa təsirinin nəzəri əsasları tədqiq edilmiş və bu zaman əsas diqqət sahibkarlığın innovasiya aktivliyinin yüksəldilməsinə, dəri məmulatları və ayaqqabı istehsalı sferasında çalışan işçilərə qarşı ixtisas tələblərinin işlənilməsinə, xarici tərəfdaşlarla qarşılıqlı işgüzar münasibətlərin əsas prinsiplərinin müəyyən edilməsinə, səmərəli maliyyə kontrollinqinin təşkilinə yönəldilmiş, adı çəkilən istehsal sferasında tədarükçünün seçilməsi prosesində tədarükçünün etibarlılığı, qiymət, materialın keyfiyyəti, ödəniş şərti, tədarük müddəti və servis xidməti amillərinə üstünlük verilməsinin vacibliyi əsaslandırılmışdır.

Tədqiqat işinin **«Azərbaycanın emal sənayesində sahibkarlığın təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi»** adlı ikinci fəslində çoxillik statistik ilkin uçot və hesabat sənədlərinin məlumatları əsasında emal sənayesi müəssisələrinin fəaliyyətini xarakterizə edən əsas göstəricilər müqayisəli təhlil olunmuş, bu sənaye sahəsində mövcud olan kiçik, orta, müştərək müəssisələrin və fərdi

sahibkarların fəaliyyətinin təşkili qiymətləndirilmiş, dəri məmulatları və ayaqqabı istehsalı sferasında sahibkarlığın təşkilinin müqayisəli təhlili aparılmış və hər bir istiqamət üzrə müvafiq ehtiyat imkanları aşkara çıxarılaraq, onlardan səmərəli istifadə yolları göstərilmişdir.

Emal sənayesi ölkə iqtisadiyyatının strukturunda əhəmiyyətli mövqe tutmuşdur. İşdə onun fəaliyyətini xarakterizə edən əsas göstəricilər ətraflı təhlil edilmiş və bu zaman əsas diqqət müəssisələrin fəaliyyət növləri və işçilərin sayına görə qruplaşdırılmasında baş verən dəyişikliyə, emal sənayesinin sahə quruluşuna, mülkiyyət növünə görə strukturuna yönəldilmiş, ölkədə yaradılan və ləğv edilən müəssisələrin sayı və xüsusi çəkisi iqtisadi regionlar üzrə təhlil olunmuş, orada əsas kapitala yönəldilmiş vəsaitin iri və orta, kiçik müəssisələr, dövlət və qeyri-dövlət səpkisində yönümünə qiymət verilmiş, ƏİF-in strukturu, onlardan istifadəni xarakterizə edən göstəricilər, işçilərin tərkibi, hərəkəti və axıcılığına qiymət verilmiş, mövcud kənarlaşmaların səbəbləri, digər müxtəlif ehtiyat imkanları aşkar olunmuşdur. Bu fəsildə kiçik və müştərək müəssisələrin, eləcə də fərdi sahibkarların fəaliyyətinin nəticələri ətraflı araşdırılmış, sahibkarlıq subyektlərinin mülkiyyət formaları üzrə strukturu nəzərdən keçirilmiş, kiçik sahibkarlıq fəaliyyətinin təşkilini xarakterizə edən göstəricilər təhlil edilmişdir. (Cədvəl 1, Cədvəl 2)

**Cədvəl 1.**

**Azərbaycanın emal sənayesində sahibkarlıq subyektlərinin mülkiyyət formaları üzrə strukturu (yekuna görə, faizlə)*)**

| Mülkiyyət formaları | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| Cəmi, o cümlədən | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Dövlət müəssisələri | 11,5 | 7,7 | 7,1 | 6,8 | 5,6 | 5,3 |
| Bələdiyyə müəssisələri | 0,0 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Xüsusi müəssisələr | 79,1 | 81,9 | 82,3 | 82,4 | 83,6 | 83,9 |
| Xarici müəssisələr | 4,4 | 4,8 | 5,0 | 5,2 | 5,4 | 5,8 |
| Birgə müəssisələr | 5,0 | 5,5 | 5,5 | 5,5 | 5,3 | 4,9 |

*)Cədvəl ARDSK-in «Sosial, iqtisadi inkişaf» aylıq statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır

Təhlil zamanı müəyyən edilmişdir ki, bir çox təşkilati-inzibati və maliyyə amilləri hesabına emal sənayesində fəaliyyət göstərən kiçik müəssisələrin əksəriyyəti zərərlə və yaxud aşağı rentabelli işləyir, çox vaxt rəqabətə davam gətirmədən öz fəaliyyətlərini dayandırırlar.

Nəticədə, təkcə 2013 və 2014-cü illərdə ləğv edilən xarici və müştərək müəssisələrin hesabına 2728,2 mlyn. manat məhsul və 8136 iş yeri itirilmişdir. Bu fəsildə emal sənayesində xarici və müştərək müəssisələrin mülkiyyət formalarına və ölkələr üzrə strukturunda baş verən dəyişiklik araşdırılmış, emal sənayesinə daxil olan alt sahələrdə fərdi sahibkarların fəaliyyətini xarakterizə edən göstəricilər təhlil edilərək çoxsaylı ehtiyat imkanları aşkar edilmişdir

**Cədvəl 2.**

**Azərbaycan emal sənayesində kiçik sahibkarlıq fəaliyyətinin təşkilini xarakterizə edən əsas göstəricilər*)**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
| Kiçik müəssisələrin sayı, vahid | 5041 | 6206 | 4765 | 4758 | 5008 | 5184 |
| Ölkə üzrə qeydə alınan bütün kiçik müəssisələrin tərkibindəki xüsusi çəkisi, faizlə | 9,7 | 8,0 | 7,9 | 7,6 | 7,2 | 6,9 |
| Hüquqi şəxslərin ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi, faizlə | 91,0 | 93,7 | 93,1 | 92,6 | 93,1 | 92,9 |

*)Cədvəl ARDSK-in «Sosial, iqtisadi inkişaf» aylıq statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır

Ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına yönəldilmişdir. Son 20 il ərzində ölkədə sahibkarlığını tənzimləyən prosedur və qaydalar liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı, mexanizmi işə salınmışdır. Ötən 10 il ərzində Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitləri hesabına 20 minə yaxın sahibkarın ümumi dəyəri 2 mlrd.man. olan layihələri maliyyələşdirilmiş; 1,2 mlrd.man. güzəştli kredit verilmişdir

Araşdırmalar göstərir ki, 2010-2014-cü illər ərzində respublika üzrə dəri, dəri məmulatları və ayaqqabıların istehsalının pula ifadəsi (məbləği) 324% artaraq – 19.1 mlyn.man. olmuşdur.

Bu fəsildə dəri məmulatları və ayaqqabı istehsal edən ayrı-ayrı sahibkarlıq subyektlərinin fəaliyyəti, eləcə də ayaqqabıların fərdi tikişi üzrə əhaliyə göstərilən məişət xidmətinin əsas göstəriciləri təhlil edilib qiymətləndirilmişdir. Bununla yanaşı işdə xarici dövlətlərdən Azərbaycana gətirilən ayaqqabıların sayı onların ümumi həcmdəki xüsusi çəkisi ətraflı təhlil edilmiş, ayaqqabı idxal edən ölkələrin sayının yüksələn xətlə artması müəyyən olunmuşdur.

Həmin ölkələrin coğrafiyasına diqqət yetirərkən aydın olur ki, ən çox ayaqqabı idxal edən ölkələr sırasında Çin, İran, Rusiya, Belarus, Hindistan, İspaniya, Belçika, Türkiyə üstünlük təşkil edir.

Aparılan kompleks təhlil və araşdırma bir daha sübut edir ki, fəaliyyəti bu vaxtadək az tədqiq olunan dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı sferasında çoxsaylı ehtiyat imkanları mövcuddur ki, bunlar da sahənin davamlı inkişafına öz mənfi təsirini göstərir.

Dissertasiya işinin **«Emal sənayesində sahibkarlığın dayanıqlı iqtisadi inkişafının başlıca istiqamətləri»** adlı üçüncü fəslində sahibkarlığın inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin genişləndirilməsi və onların risk-menecment strategiyasının formalaşdırılması istiqamətləri göstərilir.

Suverenlik illərində sahibkarlığın inkişafı, dəstəklənməsi, idarə edilməsi, tənzimlənməsi istiqamətində 140-a yaxın normativ-hüquqi aktlar, qərarlar, sərəncamlar, proqramlar və s. qəbul edilmişdir. Buna baxmayaraq, hələ də həmin aktlarda boşluqlar mövcuddur və onlar vaxtaşırı yeniləşdirilir. Ən çox dəyişiklik Vergi, Mülki və Əmək Məcəlləsində aparılır. Kiçik və orta müəssisələrin inkişafı üzrə uzunmüddətli Milli Strategiyanı özündə əks etdirən yekdil sənəd yoxdur. Odur ki, Avropa İttifaqının təcrübəsini nəzərə alaraq, «Kiçik biznes haqqında» beynəlxalq təcrübəni özündə əks etdirən Qanunun işlənilməsi və qəbul edilməsinə ehtiyac duyulur.

Emal sənayesinin tədqiq etdiyimiz alt-sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkar firmalarda ictimai və dövlət əhəmiyyətli sifarişlərin yerinə yetirilməsi, vahid bazarlardan istifadə imkanları,

İnnovasiyanın tətbiqi üzrə dövlət dəstəyi, təşəbbüskarlığın mükafatlandırılması, menecmentin mütərəqqi metodlarının tətbiqi, işçilərin əməyinin motivləşdirilməsi, perspektiv dövr üçün fəaliyyətin planlaşdırılması, menecment funksiyalarının düzgün bölüşdürülməsi, onların arasında qarşılıqlı əlaqənin yaradılması, işçilərin əməyinin ödənişi üzrə mütərəqqi sistemlərin tətbiqi, yerinə yetirilən işin həcmi ilə əməyin ödənişi arasında birbaşa əlaqənin formalaşdırılması və s. bu kimi idarəetmə prosesinin təşkili üzrə səylərin gücləndirilməsinə zəruri ehtiyac duyulur. Bu məqsədlə işdə menecmentin ümumi qəbul edilmiş funksiyalarının qarşılıqlı əlaqəsini özündə əks etdirən prinsipial sxemlər təklif edilmişdir.

Sahibkar firmaların dayanıqlı inkişafı marketinqin səmərəli təşkilindən birbaşa asılıdır. Sahibkarlığın müasir marketinq konsepsiyası ondan ibarətdir ki, marketinqin qarşıya qoyduğu məsələlər icra edilməli və onlar iqtisadi səmərə verməlidir.

Marketinq funksiyasından istifadənin maliyyə effekti modelini aşağıdakı kimi təsvir etmək olar:

$$\Delta M=(X_{rq}+X_r+X_{ss}+X_{mt}+X_{şk})x\beta_i^{n=5}-(X_{sx}+X_m)$$

burada,

$X_{rq}$ – rəqabətqabiliyyətli məhsulun formalaşması və istehsalına çəkilən xərclər;

$X_r$ – reklam fəaliyyətinə çəkilən xərclər;

$X_{ss}$– satışın stimullaşdırılmasına çəkilə xərclər;

$X_{mt}$ – marketinq tədqiqatlarına yönəldilən xərclər;

$X_{şk}$ – marketinqin şəxsi kommunikasiya xərcləri;

$X_{sx}$ – satış prosesində yol verilən əlavə xərclər;

$X_m$ – əvvəlcədən məbləğini planlaşdırmaq mümkün olmayan müstəqim xərclər

$\beta_i^{n=5}$– zəruri xərclərin hədd əmsalı (hər bir marketinq alətinə yönəldilən 1 manat investisiyanın verdiyi əlavə pul vəsaiti)

Bununla yanaşı, dayanıqlı inkişafa təminat yaradan əsas şərtlərdən biri – müəssisədaxili sahibkarlığın səmərəli təşkilidir. Ona aşağıdakı istiqamətlərin icrası hesabına nail olmaq mümkündür:

➢ İşçilərin yaradıcılıq potensiallarının inkişaf etdirilməsi üçün münbit şəraitin yaradılması;

➢ Müəssisədaxili material və qeyri-material resurslarından maksimum istifadə edilməsi;
➢ Özlərinin xidməti vəzifələrinin icrası prosesində yeni ideyaların və yanaşmaların işlənilməsində işçilərin əməyinin motivləşdirilməsi;
➢ İnnovasiyaları istehsalata cəlb tətbiq etməklə rəqiblərin innovasiya fəaliyyətini qabaqlamaq.

Tədqiqatlarımızla müəyyən edilmişdir ki, emal sənayesi müəssisələrində məhsulun qiymətləndirilməsi mexanizmi təkmil deyildir. Odur ki, ilk növbədə təkmil qiymət siyasəti və strategiyası işlənib hazırlanmalı, orta və iri sahibkarlıq subyektlərində məhsula qiymət müəyyən edərkən aşağıdakı amillər nəzərə alınmalıdır:
➢ Buraxılan məhsulun alıcılıq qabiliyyətinin səviyyəsi;
➢ Bazarda həmin məhsula olan tələbatın elastikliyi;
➢ Müəssisədə buraxılan məhsula bazardakı qiymətin təsiri;
➢ Qiymətqoymanın dövlət tənzimlənməsi tədbirləri;
➢ Rəqib müəssisənin eyniadlı məhsula qoyduğu qiymətin səviyyəsi.

Sahibkarlığın davamlı iqtisadi inkişafına təminat yaradan əsas aspektlərdən biri də – həmin fəaliyyətin dövlət tənzimlənməsidir.

İşdə onun strukturu və məzmunun özündə əks etdirən təkmil sxem tövsiyə olunmuşdur.

Ölkəmizin emal sənayesində sahibkarlığın dayanıqlı inkişafına mənfi təsir göstərən ən başlıca şərtlərdən və amillərdən biri – innovasiya aktivliyinin aşağı olmasıdır. Odur ki, ölkənin emal sənayesinin və onun tədqiq edilən alt-sahəsinin innovativ inkişafının mövcud durumu konteksində innovasiya siyasətinin həyata keçirilməsi üçün aşağıdakılar qaçılmazdır:
➢ qanunun alt aktlarının və proqramların hazırlanması və təsdiqi;
➢ sahə proqramların maliyyələşdirilməsi;
➢ innovasiya siyasətinin reallaşdırılması üçün elmi-texniki və material təminatı;
➢ sahə innovasiya proqramların işlənilməsi və həyata keçirilməsi;
➢ sahibkarlığın inkişafına kömək;
➢ innovasiya fəaliyyəti sahəsində sahə və sahələrarası strukturların əlaqələndirilməsi;

Regional səviyyədə isə əsas diqqət aşağıdakılara yönəldilməlidir:

➢ Hər bir regional coğrafi-iqtisadi xüsusiyyətləri və sosial-iqtisadi durumu nəzərə almaqla yerli innovasiya proqramlarının hazırlanmasının təşkili, təsdiqi və həyata keçirilməsi;

➢ innovasiya siyasətinin səmərəli reallaşdırılması üçün elmi-texniki, material və digər ehtiyatların cəlb edilməsi;

➢ regional, sahə və yerli səviyyələrdə mövcud innovasiya strukturları fəaliyyətinin əlaqələndirilməsi;

➢ yerli səviyyədə innovasiya fəaliyyətinin həyata keçirilməsinə nəzarət

Həmin strateji istiqamətlərin və dövlət siyasətinin prioritetlərinin həyata keçirilməsi zərurəti isə - emal sənayesinin sahibkarlıq subyektində innovativ inkişafa mənfi təsir göstərən çoxsaylı təşkilati-iqtisadi, texniki-texnoloji və menecmentin səmərəli təşkili üzrə bu vaxtadək həllini gözləyən məsələlərdir. İşdə həmin aspektlərin təsnifatı sxem şəklində göstərilmişdir. Hesab edirik ki, ölkəmizin emal sənayesində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri üçün təkmil innovasiya mexanizmi işlənilməlidir. Bunun üçün sahibkarlıq subyektlərinin inkişaf konsepsiyası və onun həyata keçirilməsi mexanizmi olmalıdır. Həmin subyektlərin innovativ inkişaf konsepsiyası aşağıdakılara söykənməlidir:

a) sahibkarlıq təcrübəsinin ötürülməsi ənənələrinin formalaşdırılmasına;

b) əhalinin işgüzar aktivliyinin qorunub-saxlanması üçün münbit şəraitin yaradılmasına (şəkil 1).

Azərbaycanda innovasiya prosesinə ayrılan xərclərin mütləq hissəsini amortizasiya ayrımları təşkil edir. İnnovasiya xərclərinin içərisində özəl sektorun payının çoxalması isə balanslaşan idarəetmə modelinin yaradılmasının zəruriliyini ön plana çəkir. Balanslaşan idarəetmə modeli dedikdə, ilk növbədə, tədqiqatların və işləmələrin özünün istiqamətlərində prinsipial restrukturizasiyası, innovasiya sisteminin bütün səviyyələrində istifadə edilən resursların forma və metodlarının əsaslı şəkildə modernizə olunması, cəmiyyətin, hakimiyyətin, biznesin və elmin qarşılıqlı əlaqəsinin köklü transformasiyası kimi, başa düşülməlidir.

Bizim fikrimizcə, innovasiyayönümlü iqtisadiyyata hədəflənən Azərbaycan üçün məhz balanslaşan idarəetmə modeli çox vacibdir.

İnnovasiya fəaliyyətinin həyata keçirilməsinin uğuru: müəssisənin sərəncamında olan zəruri resursların həcmindən; innovasiya layihələrinin həyata keçirilməsi üçün tətbiq edilən təşkilati-idarəetmə

mexanizminin səmərəliliyindən; müəssisənin fəaliyyətini tənzimləyən innovasiya infrastrukturunun inkişaf səviyyəsindən asılıdır. Bu onu göstərir ki, müəssisənin innovasiya sistemi üçbucaq şəklində təzahür olunur və onun hər bir tərəfi bir amil kimi innovasiyanın işlənilməsinə, yayılmasına və istifadəsinə, daha doğrusu, innovasiya fəaliyyətinin həyata keçirilməsinə birbaşa təsir göstərir.

İnnovasiyayönümlü iqtisadiyyata keçid modeli kontekstində emal sənayesi müəssisələrinin sosial-iqtisadi təhlili göstərir ki, sahənin dayanıqlı inkişafı bir sıra kompleks amillərdən asılıdır və onların içərisində yaxın dövr üçün ən vacibi innovasiya-texnoloji amildir, çünki məhz həmin amilin nəzərə alınması sahənin sürətli innovativ inkişafına təkan verə bilər.

İşdə kompleks amillərin məzmunu və təsnifatı cədvəl şəklində əks etdirilmişdir. Sahədə innovasiya fəaliyyətinin idarə edilməsi mexanizmin işlək olması üçün idarəetmənin prinsipləri, funksiyaları və metodları təsiredici və təminedici rolunu oynamalıdır. Sahibkar firmalarda baxılan mexanizm çərçivəsində monitorinq keçirilməsi və firmanın idarə edilməsi sisteminin qiymətləndirilməsi tədqiq edilən sahənin dayanıqlı inkişafı üzrə tədbirlərin işlənilməsinə əməli köməklik göstərmiş olacaqdır

Həmin prosesin dinamikliyini təmin etmək və işlək mexanizmin formalaşması məqsədi ilə işdə sahibkarlıq subyektlərinin innovasiya protensialının növləri və elementlərini, innovasiyanın inkişaf modeli quruluşunu və innovasiya fəaliyyətini təkmilləşdirilməsi istiqamətlərini özündə əks etdirən sxemlər tövsiyə edilmişdir.

Tədqiq edilən sənaye sahəsinin dayanıqlığına mənfi təsir göstərən əsas şərtlərdən biri – innovasiya infrastrukturlarının olmamasıdır. Bu məqsədlə işdə müvafiq infrastrukturun təsnifatı verilmiş, sahə innovasiya proqramının işlənilməsi və həyata keçirilməsinin zəruriliyi əsaslandırılmışdır.

Ölkənin emal sənayesində sahibkarlığın dayanıqlı inkişafına təsir edən əsas proseslərdən biri – risk-menecment strategiyasının formalaşmasında yol verilən nöqsanlardır.

Risk-menecmentin texnologiyası sahibkarlıq subyektlərinin dayanıqlı inkişafı üçün idarə etmə modellərinin tətbiqini nəzərdə tutur. Belə model özündə riskin idarə edilməsi üzrə üçmərtəbəli aşağıdakı




**Şəkil 1. Sahibkarlıq subyektlərinin innovativ inkişaf konsepsiyasının mexanizmi**

kompleks qaydaları özündə əks etdirməlidir:

1. Riskin idarə edilməsinin birinci mərhələsi sahibkarlıq fəaliyyətinin baxılan konkret növünə formalaşan məqsədi yönəltməkdir.

2. Riskin idarə edilməsinin ikinci mərhələsində fazalar müəyyən edilməli, eyniləşdirmə aparılmalı və riskin qiymətləndirilməsi üçün göstəricilər seçilməli və onların əsasında alınan variantların təhlili aparıldıqdan sonra qəbul edilməlidir.

3. Riskin idarə edilməsi edilməsinin ücüncü mərhələsində qəbul edilmiş qərarların icraçılara çatdırılması və onun həyata keçirilməsi

gerçəkləşməlidir. Bu mərhələnin ilkin fazasını risk-menecmentin taktika və strategiyasının seçilməsi təşkil etməlidir.

Riskin idarə edilməsinin yekun fazasında isə fikrimizcə, risk dərəcəsinin və həddinin azaldılması üzrə fəaliyyət proqramı işlənilməli müvafiq biznes-plan tərtib olunmalıdır

İşdə sahibkarlıq subyektlərində riskin neytrallaşdırılması mexanizmləri, onun idarə edilməsi prosesinə xidmət edən informasiya sistemi, eləcə də riskin təhlili, qiymətləndirilməsi və ehtiyatların aşkara çıxarılması alqoritmi müvafiq sxemlərdə öz əksini tapmışdır.

Risk səviyyəsinin aşağı olması və müəssisənin maliyyə dayanıqlığını təmin etmək üçün maliyyə-təsərrüfat fəaliyyətinin vəziyyətini xarakterizə edən dörd münbit vəziyyətin (yüksək ödəniş qabiliyyəti, balansın yüksək likvidli olması, yüksək kreditödəmə qabiliyyəti və yüksək rentabellik) uzlaşdırılması təmin edilməlidir.

Balans aktivlərinin likvidliliyinin pozulması özlüyündə risk amili hesab edilir və onun nəticəsində müəssisə aktivlər üzrə öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirə bilmirlər. Ona görə də ödəniş qabiliyyəti üzrə itirmiş riskin qiymətləndirilməsi çox vacibdir,

Odur ki, işdə ödəniş qabiliyyəti üzrə itkilərin qiymətləndirilməsi metodikasının strukturu sxem şəklində təklif edilmişdir.

Məhz həmin metodiki yanaşma əsasında sahibkar firmanın kritik risk zonasında yerləşməsi dərəcəsini və yaxud fəlakətli risk zonasına yaxınlaşmasını müəyyən edərək, onun cari və gələcək dövrdə ödəniş imkanını aşkara çıxarmaq olar. Bununla yanaşı, risk zonasının hüdudlarının müəyyən etmək üçün zərərsizlik modelinin aşağıdakı elementlərindən (göstəricilərindən) istifadə olunmalıdır:

- Satılan məhsulun həcmi;
- Məhsul vahidinin qiyməti;
- Məhsul vahidinin dəyişən xərcləri;
- Daimi xərclər;
- Dəyişən xərclər;
- Satışdan əldə edilən pul vəsaiti;
- Marjinal gəlir;
- Məhsul vahidinə düşən marjinal gəlir;
- Ümumi mənfəət.

Hesab edirik ki, risk-menecment texnologiyasında riskin təhlili mərhələsinin son həddi risk üzrə qərarların qəbul edilməsi təşkil

etməlidir və bu alternativ variantların biri kimi çıxış etməlidir. Odur ki, ilk növbədə, riskli qərarların qəbul edilməsinin meyarları və riskin idarə olunması prosesinə qarşı tələblər müəyyən olunmalıdır. İşdə onlar vahid sxemdə öz əksini tapmışdır.

Riskin idarə edilməsi siyasətinin işlənilməsi üçün risk-menecment üzrə biznes-planın tərtib edilməsi vacibdir. Belə biznes-plan öz quruluşu və məzmunu ilə istehsal xarakterli biznes-planlardan əsaslı şəkildə fərqlənməlidir. Bizim fikrimizcə, həmin plan aşağıdakı bölmələrdən ibarət olmalıdır:

1. Sahibkar firmanın fəaliyyətinin əsas aspektləri üzrə maliyyə siyasətini və strategiyasını özündə əks etdirən, birbaşa risk münasibətlərini nəzərə alan müəssisənin maliyyə ideologiyası;
2. Müəssisənin fəaliyyəti üçün xarakterik olan riskin növləri;
3. Risk hadisələri ilə əlaqədar maliyyə itkilərinin, onların yaranması ehtimalı üzrə qruplaşdırılması;
4. Risk neytrallaşdırılması formalarının seçilməsi;
5. Risk neytrallaşdırılması şərti ilə müəssisənin büdcəsinin layihəsinin hazırlanması;
6. Risk neytrallaşdırılması üzrə həyata keçiriləcək tədbirlərin (icra müddəti və cavabdeh şəxslər göstərilməklə) işlənib hazırlanması və onların monitorinqi.

Hesab edirik ki, belə bir sənədin tədqiq edilən sənaye sahəsinin orta və iri müəssisələrində işlənilməsi və tərtib edilməsi özündə riskin idarə edilməsinin prinsiplərini və siyasətinin mexanizmini özündə cəmləşdirərək dayanıqlı inkişafa təminat yarada bilər.

Aparılmış tədqiqat aşağıdakı bir sıra nəticə və təklifləri irəli sürməyə imkan vermişdir:

Dissertasiya işinin mövzusuna dair klassiklərin və dünya iqtisadçı alimlərinin fikirlərinin öyrənilib ümumiləşdirilməsi göstərir ki, «Sahibkarlıq fəaliyyəti», «Dayanıqlı» və «Davamlı» inkişaf məfhumlarının mahiyyəti və məzmunu haqqında fərqli fikirlər və yanaşmalar qalmaqdadır. Fikrimizcə, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanununda sahibkarlığa verilən tərif bütün yanaşmaları əhatə edir və daha təkmildir.

Hesab edirik ki, «dayanıqlı inkişaf» öz mahiyyətinə və əhatə dairəsinə görə daha genişdir və müasir dövrün tələblərini ödəyir, lakin gələcək nəslin öz şəxsi tələbatçılarını ödəməyi təhlükə altında

qoymayan və bu zaman digər ölkələrin suverenliyinə təhlükə yaratmayan inkişafdır.

Dayanıqlı inkişafın başlıca şərtlərini aşağıdakı kimi təsnifləşdirmək olar: iqtisadi inkişafın və sosial likvidliyin təmin edilməsi; yoxsulluq həddinin azalması, enerji növləri ilə təminat; lazımi miqdarda və keyfiyyətdə qida ilə təminat; yaxşı işlə təmin olunmaq; keyfiyyətli səhiyyə və təhsil; təmiz içməli su ilə təminat və ətraf mühitin təhlükəsizliyinin təmin edilməsi.

Davamlı inkişaf-dayanıqlı inkişafın üzvi tərkib hissəsi kimi çıxış etməli və o, bir-biri ilə sıx əlaqədə olan «Davamlı inkişaf» və «Davamlı iqtisadi inkişaf» anlayışlarının sintezi kimi təzahür etməlidir. Ölkəmizdə sahibkarlığın təşkili, xərclərin idarə edilməsi və innovativ inkişafı kontekstində onun davamlı inkişafı təmin olunmalıdır. Sahibkarlığın inkişafına təsir göstərən maneələrin aradan qaldırılması üzrə hökumət kompleks tədbirlər həyata keçirməlidir.

Fikrimizcə, ölkəmizdə sahibkarlığın davamlı inkişafı üçün milli mənafelər və region xüsusiyyətləri nəzərə alınmaqla kiçik və orta biznesin inkişafının uzunmüddətli dövrü əhatə edən məqsədli konsepsiyanın işlənilməsi vacibdir.

Davamlı inkişafı təmin etmək üçün ilk növbədə SWOT-təhlil aparmaqla sahibkarlıq subyektlərinin fəaliyyətində «dar yerləri» aşkar etmək, sonra isə – onların aradan qaldırılması üçün tələb olunan resursları müəyyən edərək strateji planlaşdırmaya üstünlük verilməlidir.

Sahibkarlıq fəaliyyətində uğur qazanmaq üçün onun subyektlərinin davamlı inkişafına zəmanəti təmin edən başlıca istiqamətlər sahə xüsusiyyətlərinə uyğun müəyyən edilməlidir.

Sahibkar firmaların davamlı inkişafını qiymətləndirmək üçün sistem göstəricilər və meyarlara əsaslanmaq lazımdır.

Ölkəmizin makroiqtisadi göstəricilərinin əsaslı şəkildə yaxşılaşdırılmasında özəl sektorun, daha doğrusu sahibkarlıq subyektlərinin rolu danılmazdır, lakin onların innovasiya aktivliyinin aşağı olması keyfiyyətli iqtisadi artıma mənfi təsir göstərir, odur ki, qarşıda duran ən vacib məsələ sahibkarların innovasiya aktivliyinin yüksəldilməsidir.

Tədqiq edilən istehsal sferasında işgüzar münasibətlərin formalaşması və alıcılarla dialoqun qurulması vacib şərtdir.

Emal sənayesinin alt-sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkar firmaların əksəriyyəti zərərlə işləyirlər. Onun başlıca səbəbi xərclərin düzgün idarə edilməməsi və onun üzərində nəzarətin aparılmamasıdır. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün tədqiq edilən istehsal sahələrində maliyyə vəsaitlərinin düzgün idarə edilməsi üçün cavabdeh şəxsin və yaxud səlahiyyətli nəzarət orqanının (şöbə, qrup) yaradılmasına ehtiyac duyulur. Hesab edirik ki, bu iş maliyyə kontrollinqinin təşkili və idarə edilməsi yolu ilə həll edilə bilər.

Müəssisədaxili sahibkarlığın inkişafı və marketinqin qarşısında duran məsələlərin icrasına qiymət vermək üçün onun iqtisadi səmərəliliyi hesablanmalıdır Bu məqsədlə işdə marketinq funksiyasından istifadənin maliyyə effektinin riyazi modeli təklif edilmişdir.

Ölkəmizin emal sənayesində və onun alt-sahəsi olan dəri məmulatlarının və ayaqqabıların istehsalı sferasında innovasiya, marketinq, məhsulun keyfiyyəti, istehsalın diversifikasiyası, yüksək ixtisaslı kadr çatışmazlığı, qeyri-təkmil idarə strukturundan istifadə, əməyin ödənişi ilə istehsalın son nəticəsi arasında üzvi əlaqənin olmaması, idxal məhsullarının xüsusi çəkisinin yüksək olması riskli fəaliyyətin mövcudluğunu şərtləşdirir. Qarşıda duran başlıca vəzifə optimal risk-menecment strategiyasını formalaşdırmaqdır.

Ölkəmizin iri şəhər və regionlarında texnoparkların, aqroparkların, sənaye və xidmət məhəllələrin, sənaye şəhərciyinin yaradılması sahibkarlığın səmərəli idarə olunmasına imkan yaratmış olacaqdır.

Emal sənayesinin və onun alt-sahələrinin davamlı iqtisadi fəaliyyətini və innovasiya aktivliyini yüksəltmək üçün əməli xarakterli aşağıdakı tövsiyələrin həyata keçirilməsi məqsədəuyğun olardı:

- Uzunmüddətli dövrü əhatə edən sahə və regional innovasiya proqramlarının işlənilməsi, həyata keçirilməsi,alt-sahələrin yenidən qurulması və diversifikasiyası üçün məqsədli investisiya-innovasiya layihələrindən və biznes-planlardan istifadə olunması;
- Sahibkarlığa dəstək infrastrukturun regional aspektdə inkişaf etdirilməsi, güzəştli vergi rejiminin tətbiq olunması, sahibkarlar üçün aşağı faizli kreditlərin verilməsi mexanizminin yaradılması, sahibkarların sərbəst şəkildə xarici bazara çıxışının təmin edilməsi üçün əlverişli gömrük rüsumlarının tətbiq olunması;

- İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin emal sənayesi müəssisələrində əməyin ödənişi üzrə mütərəqqi sistemlərin öyrənilməsi və ölkəmizin eyni adlı sferasında istifadə edilməsi,
- Dəri məmulatları və ayaqqabı istehsalı sferasının maddi-texniki təchizatının yaxşılaşdırılması hesabına boş iş günlərinin aradan qaldırılması və onun müqabilində işçilərin əmək haqqının vaxtında ödənilməsi, dəri məmulatları və ayaqqabı istehsalı ilə məşğul olan müəssisələrdə İSO tipli müvafiq beynəlxalq standartların tətbiqinə nail olunması;
- Dərilərin aşınması, dəri məmulatları və ayaqqabıların istehsalı ilə məşğul olan fərdi sahibkarlara güzəştli kreditlərin verilməsi, genişmiqyaslı ayaqqabı istehsalını təmin etmək məqsədi ilə mövcud ayaqqabı fabriklərinin yenidən qurulması və yeni fabriklərin yaradılması üçün Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi və vəsaitindən istifadə olunması,
- Sahibkarların ixtisaslarının artırılması, istehsal və idarəetmə fəaliyyəti üzrə beynəlxalq təcrübənin öyrənilməsi üçün məqsədli kursların təşkili, mütəxəssislərin hazırlanması üzrə məqsədli proqramların işlənilməsi və gənclər arasında peşəyönümü üzrə təbliğatın intensivləşdirilməsi;
- Qadınların sahibkarlığa fəal cəlb edilməsi üçün mövcud qanunvericilik aktlarında stimullaşdırıcı tədbirlərin nəzərdə tutulması və onun tətbiqi istiqamətində dövlət sifarişlərinin təxminən 5%-nin qadınların sahibi olduğu kiçik müəssisələrə həvalə edilməsi, qadınların xüsusi çəkisinin 50%-dən çox olan kiçik və orta sahibkarlıq firmalarına güzəştli ssudaların və mikro-kreditlərin ayrılması prosesinin intensivləşdirilməsi, onların ixrac fəaliyyətinə dövlət dəstəyinin verilməsi;
- Yüksək nəticələr əldə edən sahibkarların xüsusi mükafata layiq görülməsi və fəaliyyətlərinə həsr edilmiş televiziya proqramlarının maliyyələşdirilməsinə dövlət dəstəyinin verilməsi və həyata keçirilməsi.

Dissertasiya işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır.

1. Əlirzayev A.V. İstehlak mallarının istehsalı sferasında sahibkarlığın təşkilinin bəzi aspektləri // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. №3. Bakı, «Elm», 2012, s.74-77

2. Əlirzayev A.V. Regional sahibkarlığın inkişafında kiçik müəssisələrin rolu. «Regional innovasiya fəaliyyəti: reallıqlar və perspektiv inkişaf» EPK-nın materialları. Gəncə, 2012, s.190-192
3. Əlirzayev A.V. Dəri məmulatları istehsalı sferasında kadrlardan istifadənin yaxşılaşdırılması yolları // AMEA-nın İqtisadiyyat İnstitutu. Elmi əsərlər. № 4, Bakı, «Elm», 2013, s.361-364
4. Əlirzayev A.V. Emal sənayesində sahibkarlıq subyektlərinin kadr təminatı. «Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri» mövzusunda Respublika Elmi Konfransın materialları. Bakı, AzTU, 2013, s.15-17
5. Əlirzayev A.V. Sahibkarlıq subyeklərində optimal risk-menecment strategiyasının formalaşmasının metodoloji aspektləri // Koorperasiya elmi-praktiki jurnal., № 4(35)-2014
6. Алирзаев А.В. Организация предпринимательской деятельности предприятий Азербайджана по производству кожаных изделий / Украинский журнал «ЕКОНОМІСТ» № 5, Киев, 2014, с.78-80
7. Алиев Т.Н., Алирзаев А.В. Организация и пути развития предпринимательской деятельности в обрабатывающей отрасли Азербайджана. «Актуальные проблемы науки, экономики и образования XXI века». Материалы II Международной научно-практической конференции. Самара, «СИРГТЭУ» 2012, с.205-212
8. Əlirzayev A.V., Əliyev T.N Azərbaycanin Emal Sənayesində Sahibkarlıq Subyeklərinin Təşkilinin Yaxşılaşdırılması Yolları // Koorperasiya elmi-praktiki jurnal. №2(33)-2014

## Çap olunmuş elmi işlərdə müəllifin iştirakı

[ 1,6] saylı işlər müəllif tərəfindən sərbəst yerinə yetirilmişdir.

[ 7] saylı işdə hesablamaların aparılması və qrafiklərin kompüterdə tərtibi

[ 8] saylı işdə məsələnin qoyuluşu və hesablamaların aparılması

**Алирзаев Анар Везирхан оглы**

## Направления формирования устойчивого развития предпринимательства в обрабатывающей промышленности Азербайджана

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, 9 параграфов, выводов и рекомендаций, списка использованной литературы.

Во введении диссертационной работы обосновывается актуальность темы и выбор объекта исследования, определяются цели и задачи, а также объект и предмет исследования, раскрывается научная новизна работы и ее практическая значимость.

В первой главе «Теоретико-методологические аспекты формирования устойчивого развития предпринимательства в обрабатывающей промышленности» обобщены научно-теоретические взгляды зарубежных отечественных ученых на устойчивое развитие предпринимательства, раскрыты его сущность и содержание, методологические аспекты его формирования, а также исследованы теоретические основы влияния организации предпринимательского менеджмента на устойчивое развитие.

Во второй главе «Анализ и оценка современного состояния организации предпринимательства в обрабатывающей промышленности Азербайджана» на основе многолетних статистических, первичных учетных и отчетных данных проанализированы основные показатели, характеризующие деятельность предприятий обрабатывающей промышленности, оценена организация деятельности малых, совместных предприятий и индивидуальных предпринимателей в указанной отросли, а также произведен анализ деятельности предприятий по

производству обуви и кожаных изделий, выявлены соответствующие резервы.

В третьей главе «Основные направления устойчивого экономического развития предпринимательства обрабатывающей промышленности» указываются пути совершенствования организационно-экономического механизма развития предпринимательства, расширения инновационной деятельности предпринимательских субъектов, формирования их оптимальной стратегии риск-менеджмента.

В конце работы даны выводы и рекомендации по проведенному исследованию.

**Alirzayev Anar Vezirhan o.**

**The way to forming sustainable development ntrepreneurship in the manufacturing industry in Azerbaijan**

**Resume**

The dissertation work consists of introduction, 3 chapters, 9 paragraphs, conclusion and recommendations. The overall volume is 194 pages within list of used references, 32 tables and 40 schemes.

In the introduction part of the dissertation work the actuality of the subject and selection of the object to research are justified. And object and subject of the research including scientific novelty of the work and its practical significance are also disclosed.

The first chapter of the dissertation work which is called "Theoretical and methodological aspects of the formation of sustainable business development in the manufacturing industry" explores the nature and content of sustainable development of entrepreneurship, methodological aspects of its formation and also the theoretical bases of impact of the organization of the business management to sustainable development by means of works on the selected subject by domestic and foreign scientists.

The second chapter called "Analysis and evaluation of the current state of business organizations in the manufacturing industry of Azerbaijan" analyzes comparatively the main indicators characterizing the activities of manufacturing enterprises, on the basis of data for long-term statistical cost accounting and reporting documents. Furthermore, the activities of manufacturing enterprises and the organization of small activities, joint ventures and entrepreneurs in this sector have been evaluated and the comparative analysis of entrepreneurship organization in the sphere of production of footwear and leather goods have also been indicated.

The third chapter which is called "The main directions of sustainable economic development of manufacturing enterprise" indicates the ways to improve the organizational and economic mechanism of development of business, expansion of innovation activities of business entities, formation of optimal risk management strategies.

At the end of the work conclusions and recommendations of the research are given.

**Азербайджанский Государственный Университет Нефти и Промышленности**

*На правах рукописи*

**Алирзаев Анар Везирхан оглы**

# НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ УСТОЙЧИВОГО РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В ОБРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Специальность: 5304.01 – Виды экономической деятельности**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации иа соискание ученой степени доктора философии по экономике**

**Б А К У – 2016**